TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyası

Tövsiyə qərarı

COM/SCHA/REC/002/FINAL

**Yeddinci iclas**
**Ankara, 16 may 2019-cu il**

# "BMT-NİN DAYANIQLI İNKİŞAF HƏDƏFLƏRİ ÇƏRÇİVƏSİNDƏ GENDER MƏSƏLƏLƏRİ. TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ MÜASİR AİLƏLƏRİN MƏDƏNİ KİMLİYİ" (qanunvericilikdə perspektivlər)

**Parlament Assambleyası:**

"Gender bərabərliyi yalnız təməl insan hüququ deyil, eləcə də dinc, firavan və dayanıqlı dünya üçün zəruri əsasdır", kimi qeyd edən və "mədəni dəyərlər kontekstində ailənin inkişafı və gücləndirilməsi üçün kişi və qadının bərabər məsuliyyətini prioritet gündəlik maddəsi kimi müəyyənləşdirən 2030-cu il BMT-nin Dayanıqlı İnkişafının 5-ci Hədəfini ***nəzərə alaraq***,

Minilliyin İnkişaf Məqsədləri çərçivəsində Türk ailəsinin mədəni kimliyinin qorunması və qadınların hüquq və azadlıqlarının genişləndirilməsi arasında rasional tarazlığı və ailənin müsbət imicini ***hədəfləyərək***,

Hər ailənin iqtisadi qüdrətinin və ailə üzvləri arasında qarşılıqlı mənəvi hörmətin güclənməsinə ***töhfə verərək***,

Sosial-iqtisadi inkişafın aparıcı qüvvəsi kimi gender bərabərliyinin əhəmiyyətini və onunla TÜRKPA üzvlərinin mədəni kimliyi arasında uyğunluq ehtiyacını ***dərk edərək***,

Əsas sosial element olaraq ailə institutu vasitəsilə TÜRKPA üzv ölkələrinin gücləndirilməsi və uğurlu gələcək nəsillərin yetişdirilməsi üçün qadın və kişi olaraq nəhəng insan potensialını ***nəzərə alaraq***,

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

TÜRKPA üzv ölkələri arasında ailələrin həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş əməkdaşlıq, məlumat mübadiləsi və birgə fəaliyyətin faydalarını ***dərk edərək,***

Milli parlamentlərə aşağıdakı məsələləri nəzərdən keçirməyi ***tövsiyə edir***:

1. *Aşağıdakılar vasitəsilə ailədə müsbət mədəni kimliyin qorunması (milli qanunvericiliklərdə perspektivlər):*

*a)* üzv ölkələr arasında səmərəli qanun və təcrübə mübadiləsi aparılması üçün qadın platformasının *yaradılması* (ailə, qadın, kişi və uşaqların qorunması məqsədi daşıyan);

*b)* ümumi ailə sosial modeli və TÜRKPA üzv ölkələri üçün ümumi mədəni dəyərlərin *müzakirə edilməsi*;

*c)* gender mövzularında qızlar və oğlanların iştirakı ilə gənclər üçün xüsusi təlimlərin *keçirilməsi*;

*d)* ucqar ərazilərdə məsləhətçi ailə, qadın, yeniyetmə mərkəzlərinin yaradılmasının *təşviq edilməsi*;

*e)* öz dillərinin və milli ədəbiyyatlarının dərindən öyrənilməsi üçün əhalinin marağının cəlb edilməsi məqsədilə linqvistik kiçik sosial kitabxanalarla birləşmiş şəhər Ailə Klubları *ideyasının dəstəklənməsi*;

*f)* ailələrin qızların təhsili üçün xüsusi meyarlarla *motivasiya edilməsi*, yəni məktəb yaşlı qız uşaqlarına sahib uzaq kəndlərdə yaşayan ailələrə əlavə sosial dəstəyin *təmin edilməsi*;

*g)* türkdilli ölkələr arasında ailə dəyərlərinə dair filmlərin birgə istehsalı ilə bağlı səylərin *gücləndirilməsi*; TÜRKPA üzv ölkələrində zorakılığın bütün növlərinin azaldılması məqsədi daşıyan uşaq və yeniyetmə filmlərinin yaradılması məqsədilə model qanun layihəsinin *işlənib hazırlanması*; bu məsələyə təşəbbüs göstərilməsində bütün Türk qurumları ilə məsləhətləşmələrin *aparılması*;

*h)* ailə dəyərləri ilə tanış olmanın bağçadan başlayaraq uşaqlara aşılanması ideyasının *dəstəklənməsi,*

*i)* uşaqlar və yeniyetmələrə yaxşı ailə dəyərlərini aşılayan onlayn təlim proqramlarının *təşviq edilməsi,*

*j)* əhali, xüsusən, qadınlar və gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılmasının rolunun gücləndirilməsi ilə ailə sağlamlığının *qayğısına qalınması*; abortların və xüsusilə, yeniyetmələr arasında cinsi yolla keçən xəstəliklərin *azaldılması;*

*k)* ailədə iqtisadi və mənəvi şəraitin gücləndirilməsi üçün gənc nəslin kişi-qadın əməkdaşlığının nəhəng potensialından əmin olmasının *nəzərdə tutulması;*

*l)* qadınların qaçırılması və erkən nikahların qadağan olunması üzrə ortaq proqramların *dəstəklənməsi;*

*m)* mülki orqanlarda rəsmi qeydiyyat olmadan yalnız dini nikahların *tanınmaması;* Nikahların dövlət qeydiyyatından əvvəl dini nikahlar bağlana bilməz;

*n)* uşaqların təhsili və yetişdirilməsində *atanın rolunun gücləndirilməsi*;

*o)* uşaqlarla zaman keçirərkən kişi və qadınların spirtli içkilərdən *istifadə etməməsi*;

*p)* sosial həssas ailələrdən olan uşaqlar üçün sağlam həyat şəraitinin (psixotik şərtlər daxil olmaqla) saxlanması məqsədilə preventiv tədbirlərin *nəzərdə tutulması;*

*q)* Hər iki valideyni işləyən uşaqlar üçün əlavə təhsil və idman mərkəzlərinin (məktəblərinin yaxınlığında yerləşməsinə üstünlük verilməklə) *təşviq edilməsi;*

*r)* fərdi şəxslərin vəsaitlərindən maliyyələşən böyüklər üçün sosial klubların inkişaf etdirilməsi üzrə *dünya praktikasının dəstəklənməsi*;

*s)* "Öz ölkəmin Ailə Naziri olarsam, nə edərəm?" mövzusunda məktəb şagirdləri və tələbələr arasında inşa yazı müsabiqəsinin *keçirilməsi təcrübəsi;*

2. *Ailə iqtisadiyyatının gücləndirilməsi üçün (milli qanunvericiliklərdə perspektivlər):*

*a)* xüsusən, ucqar ərazilərdə qadınlar və kişilər üçün (uşaqlarını yalnız böyüdən) vergi rejimi olmadan biznes proqramların *genişləndirilməsi*;

*b)* ucqar ərazilərin qadınları, məhdudiyyətli şəxslər, məcburi köçkün və qaçqın qadınlar üçün iş imkanlarının *artırılması* (peşə kurslarının təşkili, kiçik biznesin inkişafı);

*c)* ailə-iş balansı mühitində çevik iş rejiminin təmin olunması ilə (10 yaşadək uşağı olan analar üçün iş saatlarının azaldılması) qadınların işçi qüvvəsində iştirakının təşviqi məqsədilə hüquqi səviyyədə QHT-lə *əməkdaşlıq edilməsi*; qadınların yeni texnologiyalara asan çıxışı ilə bağlı QHT layihələrinin *cəlb edilməsi*;

*d)* elmə dövlət maliyyə vəsaitinin ayrılmasının *artırılması* və müvafiq beynəlxalq elmi səfərlər və iclaslarda qadınların iştirakının *təşviq edilməsi*;

*e)* 4-5 və daha çox, eləcə də məhdudiyyətli uşaqlara sahib ailələr üçün ucqar ərazilərdə kiçik sahibkarlıq üçün *qrantların çatdırılması*;

*f)* ucqar ərazilərdə qadınlar üçün sahibkarlığın *təmin edilməsi*; ucqar ərazilərdə qadınların iqtisadi iştirakının artırılması üçün xüsusi fəaliyyət planının *hazırlanması*;

*g)* qadınların aktivlərə sahib olmağa *ruhlandırılması* (şirkət sahibliyi, torpaq və əmlak sahibliyi); kişi və qadınların bərabər orta əmək haqqı *əldə etməsi*;

*h)* analaların təqaüd yaşının *azaldılması*;

*i)* analara uşaqlarını iş yerlərinə gətirməyə *icazə verilməsi*;

*j)* qızlar və qadınlar arasında qərar vermə təfəkkürünün *gücləndirilməsi*.

3. *Nəzəri qanunvericilik və reallıq arasında boşluğun azaldılması:*

*a)* ucqar ərazilərdə qadınlar üçün konsultasiya mərkəzləri ideyasının *dəstəklənməsi;*

*b)* istənilən növ ayrı-seçkiliyə (zorla erkən nikahlar, məişət zorakılığı, gəlinlərin qaçırılması və s.) qarşı işlək mexanizmlərin *tapılması*;

*c)* məktəbdə zorakılığın azaldılması üçün mexanizm və tədbirlərin *axtarılması*;

*d)* gələcəyin ata və anaları kimi yeniyetmələrin sağlamlıqları haqqında maarifləndirilməsinin *yüksəldilməsi*;

*e)* ucqar məktəblərdə qızlar və oğlanlar üçün gender sahəsində qanunvericilik üzrə məktəb proqramlarına xüsusi mühazirələrin *daxil edilməsi*;

*f)* "Çox uşaqlı və məhdudiyyətli uşaqlara sahib ailələrə dövlət dəstəyi haqqında" qanuna təşəbbüs göstərilməsinin *təklif edilməsi*;

*g)* Sosial ailə işçisi qurumunun *nəzərdə tutulması*;

*h)* müasir ailələrdə boşanmaların statistikasına *diqqət yetirilməsi*;

*i)* Komissiyanın 7-ci iclasının nəticəsi kimi, üzərində model qanunun işlənib hazırlanması üçün gender, ailə mövzularında qanunların qarşılıqlı *mübadilə edilməsi*;

*j)* iqtisadiyyatda, siyasətdə qərar vermə prosesində qadınların rolunun *artırılması*;